International Dialogue for Environmental Action

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi

UNDP-GEF KURA

gef

UNDP

# Suyun qorunması vacibdirmi?

III-V Siniflər




Cənubi Qafqazın Fiziki Xəritəsi
Dərinlik və yüksəklik şkalası, m-lə
4,000
3,000
2,000
1,500
1,000
500
200
0
- 500
- 1,000
- 1,500
Buzlaqlar
Aragats 4090 Zirvə, m
Goderdzi 2025 Aşırım, m
BLACK SEA
CASPIAN SEA
GEORGIA
RUSSIAN FEDERATION
AZERBAIJAN
ARMENIA
TURKEY
IRAN
Abkhazia
Sukhumi
Poti
Batumi
Adjara
Kutaisi
Gori
Tbilisi
Rustavi
Telavi
Nalchik
Grozny
Vladikavkaz
Magas
Caspian Depression
Makhachkala
Elbrus 5642
Mestia
Colchis Plain
Akhaltsikhe
Bakuriani
Shiraki Valley
Shaki
Guba
Alaverdi
Spitak
Gyumri
Vanadzor
Ganja
Mingachevir
Mingachevir Reserv.
Sumgayit
Absheron
Baku
Kars
Aragats 4090
Armavir
Yerevan
Lake Sevan
Ararat Valley
Ararat 5165
Kura-Aras Depression
Neftchala
Goris
Kapan
Nakhchyvan (Azerbaijan)
Nakhchyvan
Lankaran
Talysh
Pontic Mountains
Armenian Highland
Lake Van
Van
Kur (Kura)
Aras (Araz)
Map by Manana Kurtubadze, GRID-Arendal, 2015.
0 100 km


Yağış
Qar
Çay
Yeraltı su
Dəniz

## Dünya xəritəsinə nəzər salsaq görərik ki, Yer səthinin əksər hissəsi su ilə örtülmüşdür.

Yer üzündə çoxlu sayda çaylar, göllər, bataqlıqlar, buz örtüyü, dənizlər və okeanlar mövcuddur.





Bu qədər çox su olsa da, az miqdarda su insanların istifadəsi üçün yararlı vəziyyətdədir.
Yer səthindəki suların çoxu duzlu olduğundan insanlar tərəfindən az istifadə olunur.

Təəssüf ki, insan təsiri və sudan səmərəsiz istifadə səbəbindən mövcud suyun miqdarı xeyli azalmışdır. Həmçinin, bir çox çay və göllər çirklənmişdir və artıq insanların istifadəsi üçün yararlı vəziyyətdə deyil. Bundan əlavə, çirklənmiş su digər canlı orqanizmlər tərəfindən də istifadə edilə bilmir.

**Bunları bilmək maraqlıdır**
İnsanlar Yer kürəsindəki ümumi su miqdarının çox az bir hissəsini təşkil edən şirin sudan istifadə edirlər.
Şirin su quruda 6 milyondan çox növ və suda 126 min növ üçün həyat mənbəyidir.
Müqayisə üçün: Su çatışmazlığı olan ölkələrdə insanlar öz hovuzlarında yığılan suyun yalnız az hissəsini istifadə edə bilirlər.



Sızmaların qarşısını almaq üçün suya qənaət edən cihazlar quraşdırın



Bitkiləri səhər və ya gecə sulayın



Qısa müddətli duş alın

# HƏR KƏS ÜÇÜN SU!





Su sızmalarının qarşısını almaq üçün dişlərinizi fırçalayarkən su kranını bağlayın



Su sızmalarına qarşı müntəzəm olaraq təmir işləri həyata keçirin



Qabyuyan maşını tam həcmində yükləyərək istifadə edin

Təmiz suyun olmaması qida çatışmazlığı və müxtəlif xəstəliklər kimi bir çox problemlərə səbəb olur.



**Sudan səmərəsiz istifadə nəticəsində baş verən itkilərin azaldılması mövcud vəziyyəti aradan qaldırmaq üçün həll yollarından biridir. Hər birimiz bu işdə iştirak edə bilərik. Bunu aşağıdakı kimi etmək olar:**

- Evdə su sızdıran borunun aşkar edilməsinə diqqət yetirin. Sızma aşkar etdikdə, onu düzəldilməsi üçün böyüklərə vaxtında məlumat verməyə çalışın.
- Paltaryuyan maşınların, kranların və duşların yeni modellərinin köhnə modellərə nisbətən az su sərf etdiyini unutmayın.
- Tez-tez dondurulmuş məhsulların əridilməsi üçün sudan istifadə olunur. Dondurulmuş məhsulları otaq temperaturunda əritdikdə bunun üçün daha uzun müddət tələb olunsa da, çox miqdarda suya qənaət edilmiş olacaqdır.
- Dişlərinizi fırçalayarkən kranı açıq saxlamaq əvəzinə onu bağlayın və lazım olanda yenidən açın.
- Paltarı yuyarkən paltaryuyan maşınınızın paltarla dolu olduğundan əmin olun (bu üsulun suya qənaət etməyə necə kömək edəcəyinizi düşünün).
- Həyətinizdəki bitkiləri suvarmaq üçün yağış suyunu toplamağa çalışın.
- Bitkilərinizi yalnız lazım olduqda suvarın. Həddən artıq çox suvarma az suvarma qədər ziyandır.
- Velosipedinizi axan sudan istifadə etməklə yumaq əvəzinə su ilə doldurulmuş vedrə ilə yuyun.

## Bunu özünüz edin

- Gündəlik həyatda suya qənaət etməyin digər yolları barədə düşünməyə çalışın.
- Müəyyənləşdirdiyiniz suya qənaət etmək yollarını sinif yoldaşlarınızla bölüşün.
- Evdə valideynlərinizlə, məktəbdə müəllimlə və sinif yoldaşlarınızla suya qənaət etməyin yollarını müzakirə edin.





# HƏR KƏS ÜÇÜN SU!

